# Kiçikyaşlı məktəblilərin islam dəyərləri əsasında tərbiyəsinin əhəmiyyəti

**Günel Əmirxan qızı Əmirxanzadə**
*Bakı Qızlar Universiteti*
**E-mail:** agayeva2005.ag@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos.P.M. Həsənova,
p.ü.f.d., dos.G.V. Sultanova

**Açar sözlər:** kiçik məktəbli, islam dəyərləri, əxlaq tərbiyəsi, uşaq şəxsiyyəti
**Ключовые слова:** младший школьник, исламские ценности, нравственное воспитание, личность ребенка
**Key words:** primary school learners, islamic values, moral education, child's personality

Bu gün Azərbaycan Respublikasının dünya miqyasında tanınması, müstəqilliyimizin bərpası, bir sözlə, dünyaya inteqrasiya bəşər sivilizasiyasının əldə etdiyi nailiyyətləri əxz etməklə bərabər milli-mənəvi dəyərlərimizi qoruyub saxlamağı da aktual etmişdir. Milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq, gələcək nəslə ötürmək və inkişaf etdirmək respublikanın mədəniyyət siyasətinin əsas vəzifələrindən biridir. Bu dəyərlər içərisində islami dəyərləri böyük məna kəsb edir. Uzun bir tarixi dövrdür ki, bu mənəvi dəyərlər uzun əsrlər boyu qorunub saxlanılır.

Müasir dövrdə dünya xalqlarının üzləşdiyi bir sıra faciələr, qlobal fəlakət kimi yaşadığı müasir əxlaqi bəlalara (ailə-nikah, nəsil böhranı, alkoqolizm, narkomaniya və s.) qarşı ən yaxşı sipər, ən yaxşı təbliğat təbii-insani, milli-tarixi dəyərlərimizdən biri olan islami dəyərləri müqəddəs tutub qorumaq, gələcək üçün saf saxlamaq və onun elmi əsaslarını gənc nəslə öyrətməkdir.

Digər bir tərəfdən ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi "Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli, mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik" (3). Bu fikirdən belə qənaətə gəlmək olar ki, biz bir xalq olmaq etibarilə özümüzü təsdiq üçün dəyərlərimizin qaynaqlarını tədqiq etməli, onların bizə aid olduqlarını elmi arqumentlərlə ortaya qoymağı bacarmalı və özümüzü dəyərlərimizin həqiqi sahibləri kimi aparmalıyıq.

Gənc nəslin gələcək həyata hazırlanmasının ən məsul dövrü kiçik məktəb yaşı dövrüdür. Bu dövrdə uşaqların milli-mənəvi dəyərlərinin formalaşması və inkişafına xüsusi diqqət yetirmək xüsusi aktuallıq kəsb edir. Kiçik yaşlı məktəblilərin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsində islami dəyərlərdən istifadənin rolu böyükdür. Kiçik məktəblilərin yaş və anlaq səviyyələrinə uyğun şəkildə bu dəyərlərdən istifadə olunması və onların dərsliklərə salınması xüsusilə vacib məsələlərindəndir.

Ümummilli lider Heydər Əliyev milli-mənəvi və dini dəyərlərimiz haqqında demişdir: "Hər bir xalqın öz adət-ənənələri, öz milli-mənəvi və dini dəyərləri var. Biz o milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, yaxud onları qəsdən təhqir edirsə, bu bizi narahat etməlidir" (3).

Başqa dinlərdə olduğu kimi, aləmin sonuncu dini olan islam dinində də tərbiyə problemi mühüm yer tutur və müsəlmanların müqəddəs kitabı olan "Qurani-Kərim"də, Peyğəmbərimizin hədislərində və rəvayətlərində tərbiyə barəsində çox dəyərli, əvəzsiz fikirlər söylənilmişdir. "Qurani-Kərim"ə görə insan yer üzündə ən dəyərli varlıqdır. O, dünyaya xoşbəxt olmaq üçün gəlmişdir. İnsan o zaman xoşbəxt ola bilər ki, o, gözəl əxlaqa sahib olsun, yaxşı tərbiyə məktəbi keçsin, tək özünü deyil, ətrafını da düşünsün, xeyirli işlərin sahibi olsun.

İslam dəyərləri dedikdə, Məhəmməd Peyğəmbərin (s.ə.s) həyat yolu və bu haqda səhabələrinin etdiyi rəvayətlər, "Qurani-Kərim"in insanların üzərinə qoyduğu tələblər(insanların gözəl əxlaqa sahib olması üçün edəcəyi əməllər, onların kamillik dərəcəsinə çatması can atmalı olduqları həyat yolu və s.), övliyaların, təlim-tərbiyə və mənəviyyat haqqında hədisləri daxildir.

Kiçik yaşlı məktəblilərin təlim-tərbiyə işində islami dəyərlərdən istifadə olunması yüksək nəticələr verə bilər. Çünki islam başdan-başa əxlaq və mənəviyyat kitabıdır. Burada əxlaqi dəyərlərin bütün cəhətlərinə rast gəlmək olar: düzlük, doğruçuluq, böyüyə hörmət, kiçiklərə sevgi və qayğı, vətənpərvərlik, yaxşı insanlardan nümunə götürmək, nalayiq insanlardan uzaq olmaq və s.

**Məqalənin aktuallığı.** Azərbaycanın müstəqillik əldə etməsi ilə müstəqil dövlətimizə ləyaqətli, milli-mənəvi dəyərlərinə sahib vətəndaş tərbiyəsi bu günkü təhsilimizin ən aktual məsələlərindən biridir.

**Məqalənin elmi yeniliyi.** Kiçik yaşlı məktəblilərin təlim-tərbiyəsinin islam dəyərlərinə əsaslanaraq həyata keçirilməsi və məktəblərimizdə təbliği yollarının araşdırılması məqalənin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ümumtəhsil məktəbinin müəllimləri, həmçinin tərbiyəçi-müəllimlər, tələbə və magistrantlar yararlana bilərlər.

## Ədəbiyyat


1. Ağayev Ə.Ə. Seçilmiş pedaqoji əsərləri. Bakı: Mütərcim, 2011.
2. Heydər Əliyev. “Müstəqilliyimiz əbədidir” (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar). Bakı: Azərnəşr, 1998.
3. Əliyev H. Milli-mənəvi və dini dəyərlərimiz haqqında bəyanat. "Azərbaycan müəllimi" qəz., 2001, 16-22 avqust
4. Qurani-Kərim. Bakı: Azərnəşr, 1992.
5. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi, ”Xalq qəzeti”, 1996, 6 fevral
6. Təhsil millətin gələcəyidir / M. Mərdanov və Ə. Quliyevin redaktəsi ilə. Bakı: Təhsil, 2012.

**Г.А. Амирханзаде**

## Значение обучения молодых студентов на основе исламских ценностей

### Резюме

Воспитание долгий и беспрерывный процесс. Воспитание школьников младших возрастов на основе исламских ценностей тоже должно считаться частью воспитания. Хоть во время обучения, хоть вне обучения дела, ведомые для воспитании у школьников мусульманских ценностей, могут считаться важной частью общего воспитания.

**G.A. Amirhanzada**

## The importance of educating young students on the basis of Islamic values

### Summary

Bringing up children is a long term and continuous process. Bringing up primary school learners based on Islamic values should be also mentioned as a part of education. Either while teaching or out of training education based on Islamic value of junior’s which are carrying out on education can be considered the most essential means of education.

**Redaksiyaya daxil olub:** 02.11.202